# Mühakimə - 20 /Dec/ 2023

**Qəzzada fələstinlilərin soyqırımı cinayətinə görə**

Yüklə

Fələstin hadisəsində qəsbkar rejim bütün dünyanın gözləri önündə soyqırım cinayəti həyata keçirir. Bunu bütün dünya müşahidə etməkdədir. Ölkəmizin məsul şəxsləri ilə danışıqları zamanı sionist rejimi müdafiə edən bəzi ölkələrin məsul şəxsləri etiraz ediblər ki, nə üçün fələstinlilər sivil insanları öldürüblər? Birincisi, bu doğru deyil; yəni qəsəbələrin sakinləri bunlar kimidirlər, sivil deyillər, hamısı silahlıdır. Tutaq ki, sivildirlər, nə qədər sivil insan öldürülüb? Qəsbkar rejim onlardan yüz dəfə çox sivil qadın, uşaq, qoca, cavan öldürüb. Qəzzadakı binalarda hərbçilər yaşamırlar. Hərbçilər öz yerlərindədirlər, onlar bunu bilirlər. Bunlar həmin insanlardır.

İnsanların daha sıx olduqları mərkəzləri seçib vururlar. Bu vaxta qədər Qəzzada neçə min nəfər fələstinli qətlə yetirilib! Bu cinayət bütün dünya əhalisinin gözləri önündə baş verir. Bunlar mühakimə olunmalıdırlar. Qəsbkar sionist rejim bu gün mütləq mühakimə edilməlidir. Onlar mühakimə edilməlidirlər. ABŞ hökuməti də bu hadisədəki məsuliyyətini etiraf etməlidir.

Əldə etdiyimiz müxtəlif məlumatlara əsasən, bu günlərdə, yəni son həftə ərzində cərəyan edən hadisələr fonunda sionist rejim amerikalılar tərəfindən idarə edilir. Yəni siyasi idarəçilər onlardır. Baş verən bu hadisələr amerikalıların siyasətidir. Amerikalılar cavab verməlidirlər, məsuliyyət daşıyırlar. Qəsbkar sionist rejim bu gün mütləq mühakimə edilməlidir.